Tərbiyə məsələləri

Nizami yaradıcılığında övlad tərbiyəsi məsələləri

Rəcəb Ağayev
Naxçıvan Dövlət Universitetinin dosenti

Açar sözlər: Nizami, mənəvi dəyərlər, özünü tərbiyə, özünütəhsil.
Ключевые слова: Низами, моральные ценности, самовоспитание, самообразование.
Key words: Nizami, moral virtues,self-upbringing, self-educatioбn.

Zəkalar sultanı Nizami Gəncəvi çoxçalarlı tərbiyə məsələlərindən bəhs edən, zamanı qabaqlayan yaradıcılıq irsinə malik kamil sənətkar və böyük şəxsiyyətlərdən biridir. O, sağlığında yaradıcılıq keyfiyyətləri ilə, ölməz əsərləri ilə həmişəyaşarlığını qazanmışdır. Onun "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə" əsərlərini neçə dəfə oxusan bir o qədər çox yeni-yeni mənəvi, bəşəri dəyərlərlə bəhrələnmiş olarsan.

"On adam öldürər bir qılınc əgər, Düşüncə ordunu salar dərbədər" poetik misralarının müəllifi, yüksək sağlam düşüncə tərzinə malik olan N.Gəncəvi çox yaxşı bilirdi ki, övladın tərbiyəsi ilə Məhəmməd peyğəmbərin söylədiyi kimi, beşikdən qəbirədək məşğul olmaq lazımdır. Atanın övladına verdiyi tərbiyədən qiymətli miras yoxdur. O, bütün yaradıcılıq irsində "Oğlum Məhəmmədə nəsihət" şeirini biri digərindən fərqlənmək şərti ilə üç dəfə qələmə almışdır. Fikrimizcə, bu da tərbiyənin yaşa bağlılıq prinsipi ilə əlaqədir.

Şərq bədii fikir tarixində dəyərli poetik irsə malik olan N.Gəncəvi "Oğlum Məhəmmədə nəsihət" adlandırdığı şeirini birinci dəfə övladının 7 yaşı tamam olanda, ikinci dəfə 14 yaşı tamam olanda, üçüncü dəfə isə 21 yaşı tamam olanda qələmə almışdır. Bu da təsadüfi olmayıb, pedaqoji qanunauyğun haldır. Şair yaxşı bilirdi ki, hər yaş dövrünün özünəməxsus anlam tərzi var. Planlı, mütəşəkkil, dəyişkən proses olan tərbiyə pedaqoji qanunauyğunluqlara, qanunlara və əsas ideya, əsas tələb rolunu oynayan tərbiyə prinsiplərinə istinad edilərək aparılmalıdır. Bizim fikrimizə görə dahi Nizaminin yürütdüyü bu fikir "Tərbiyədə uşaqların yaş və anlam səviyyəsinə müvafiqlik" prinsipinə uyğun olaraq irəli sürülmüşdür.

Yaradıcılıq irsində əqli-mənəvi, bəşəri dəyərlərə geniş yer vermiş N.Gəncəvi "Oğlum Məhəmmədə nəsihət" şeirlərinin hər birində oğlunun

timsalında bütün uşaqlara tərbiyəvi təsir göstərməyə xüsusi səy göstərmişdir. Şair bu şeirlərində yaşa, biliyə müvafiqlik, mənəvi ünsiyyətə girmək zəminində müsbət tərbiyəvi təsir göstərməyə çalışmışdır. N.Gəncəvi yaxşı bilirdi ki, uşaqla mənəvi ünsiyyət, mənəvi yaxınlıq yaratmadan onlara yüksək tərbiyəvi təsir göstərmək mümkün deyildir. Şeirlər oğlu Məhəmmədin şəxsində bütün uşaqları əqli-mənəvi cəhətdən zənginləşməyə səfərbər edir. "Xosrov və Şirin" əsərindəki "Oğlum Məhəmmədə nəsihət" şeiri "Yeddi yaşlı balam, gözümün nuru! Dilimin əzbəri, qəlbim qüruru" poetik misraları ilə başlayır. Şeirdə əqli biliklərə, əxlaqi-mənəvi dəyərlərə yiyələnməyin vacibliyi, faydası, dəyəri uşaq ruhuna, uşaq anlamına müvafiq şəkildə vurğulanır.

Həyat və yaradıcılığında azad düşüncəyə geniş yer verən şair oğlu Məhəmmədi, o cümlədən bütün uşaqları hamıda ikrah hissi doğuran bəd əməllərdən kənarlaşdırmağa, hər bir iş və əməldə hamıya örnək olan, görünən, müşahidə olunan, duyulan ideal nümunə olmağa dəvət edir. "Oğlum Məhəmmədə nəsihət" şeiri əksər tərbiyə komponentləri, əksər tərbiyə çalarları baxımından xoş təsir bağışlamaqla yanaşı, hər bir oxucunu elmi biliklərə dərindən yiyələnməyə, ağıllı, namuslu, qeyrətli, mənalı həyat sürməyə, əməlləri ilə başucalığı gətirməyə istiqamətləndirir.

İnsanın həyatda öz sağlam düşüncəsini inkişaf etdirməyi vacib sayan ustad şair Nizami oğlu Məhəmmədə ikinci şeirini böyük sevgi və məhəbbətlə yazıb ərsəyə gətirdiyi "Leyli və Məcnun" əsərində ifadə etmişdir. Bu zaman Məhəmməd artıq on dörd yaşa çatmışdır. Bu cəhətdən şair ibrətamiz, nəsihətamiz fikir və duyğularını onun yaşına, anlam səviyyəsinə, tərbiyənin yaşa, biliyə uyğun olan, əsas ideya, əsas tələb rolunu oynayan prinsiplərinə müvafiq şəkildə, səriştəli, kamil tərbiyə nəzəriyyəçisi kimi çatdırır. "Sən ey on dörd yaşlım, hər elmə yetkin! Gözündə əksi var iki aləmin" - deyən şair oğlu Məhəmmədin elm, ədəb qazanmaq sahəsində böyük səriştə, imkan sahibi olduğunu nəzərə alaraq ona qəflət yuxusundan oyanmağı tövsiyə edir. Kamil şəxsiyyət, sayılıb, seçilən insan olmağı "Ucalmaq istəsən, bir kamala çat, kamala ehtiram göstərir həyat" poetik misraları ilə xatırladır ki, şan-şöhrət qazanmaq, gərəkli insana çevrilmək öz səyindən, öz təlaşından asılıdır. Bunun üçün çalışqan, zəhmət sevər olmalısan. Öz halal zəhmətinlə, səyinlə zirvələrə ucalmalısan.

Nizami Gəncəvi oğlunun şəxsində bütün övladlarımızı özünütərbiyəyə, özünütəkmilləşdirməyə, özünütəhsilə çağırır. O, yaxşı bilir ki, tərbiyələnməyin ən optimal yolu özünütərbiyə, təkmilləşmənin ən optimal yolu özünütəkmilləşdirmə, təhsillənmənin ən optimal yolu isə özünütəhsildir. Bu cəhətlərdən də "Sən aslanlar kimi keç cəbhələrdən, yalnız hünərinin balası ol sən! nidaları ilə bildirir ki, səadətə, kamala çatmaq hər bir insanın öz zəhməti sayəsində mümkündür.

"Kim ki, ibrət dərsi alıb dünyadan, sözün lövhəsini öyrənən zaman" söy-

ləyən Nizami Gəncəvi oğluna hər sözün məna dəyərindən düzgün istifadə edərək, bağlı qapıların, müşküllüklərin açarı sayılan elmi biliklərı dərindən öyrənməyi tövsiyyə edir.

"Tanrının əmrinə sən əməl eylə, bil, üstün gələrsən hər bir müşkülə" deyən şair oğlu Məhəmmədə tövsiyə edərək bildirir ki, elmi biliklərə yiyələnmək insan üçün heç vaxt ar deyil. Həyatda rastlaşdığın bağlı qapıların, müşküllüklərin açarı elmi biliklərdir. Bütün arzu və istəklərə yalnız elmi biliklərə dərindən və fasiləsiz yol vermədən, təmkinlə, düşünə-düşünə, fikirləşə-fikirləşə dərindən yiyələnməklə nail ola bilərsən.

Fikrimə yekun olaraq bildirirəm ki, Nizami yaradıcılığı çoxçalarlı tərbiyə məsələləri ilə zəngindir. Onlardan bəhrələnmək, aparılan təlim-tərbiyə işinin səmərə və keyfiyyətini yüksəltməyə real zəmin yaratmış olar. Dahi şairin "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" sözləri zamanı qabaqlayan sözlərdir.

Rəyçi: dos. N. Nəcəfov

İstifadə edilmiş ədəbiyyat

1. N.Gəncəvi. Xosrov və Şirin, Bakı, 1981.
2. N.Gəncəvi. Leyli və Məcnun, Bakı, 1942.
3. N.Gəncəvi. Yeddi gözəl, Bakı, 1981.
4. Ağayev Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması. Bakı: Avropa, 2005.
5. Əlizadə Ə. Şagird şəxsiyyətinin formalaşmasında müəllimin rolu. // Azərbaycan məktəbi, № 3, 1983.

P.Araev

Задачи воспитания детей на творчестве Низами

Резюме

В статье рассматриваются актуальные вопросы воспитания ребенка в творчестве Н.Гянджеви на материале его стихотворения "Наставление сыну Мухамеду".

R.Agayev

The issues of upbringing of children in N. Ganjavi's literary activity

Summary

The article is related to the current issues of upbringing of children in N. Ganjavi's poem "The admonition to my son Muhammad".

Uşaqların təlim və tərbiyəsində kompyuter texnologiyalarından istifadə

Kifayət Məmmədova
Təhsil Problemləri İnstitutunun Kurikulum Mərkəzinin elmi işçisi

Açar sözlər: innovasiya, informasiya cəmiyyəti, videoproyektor, monitor
Ключевые слова: инновация, информационное общество, видеопроектор, монитор.
Key words: innovation, information fociety, videoprojector, monitor.

Azərbaycan təhsil sistemində aparılan islahatlar təhsilin bütün pillələrində qarşıya yeni tələblər qoymuş və bu sahədə pedaqoji-psixoloji yanaşmaların daha effektli yollarının axtarışını intensivləşdirmişdir. Müasir dövrdə məktəbəqədər təhsil sahəsində aparılan innovasiya prosesləri ilk növbədə uşağın potensial imkanlarının müəyyənləşdirilməsi və onun davamlı olmasını başlıca məqsəd kimi qarşıya qoyur.

Məktəbəqədər təhsil sahəsində aparılan dəyişikliklər onun məzmununa xeyli səmərəli yeniliklər gətirmiş, əsas diqqət uşaqların yaradıcı və intellektual qabiliyyətlərinin, şəxsiyyətinin, emosional-iradi və hərəki fəaliyyətinin inkişafına yönəldilmiş, ənənəvi təlim metodlarının əvəzinə, uşağın idraki inkişafına yönəldilən yeni fəal təlim metodlarından istifadəyə keçilmişdir.

"Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramının (2007-2010-cu illər)" 3-cü bəndində "Məktəbəqədər təhsil sistemində qabaqcıl beynəlxalq təcrübə əsasında yeni təhsil texnologiyalarının tətbiqinin dəstəklənməsi" qeyd olunmuşdur. Bununla bağlı qeyd etmək lazımdır ki, məktəbəqədər təhsil sahəsində yüksək keyfiyyət səviyyəsinə keçid yeni texnologiyaların istifadəsindən kənarda həyata keçirilə bilməz. Çünki məktəbəqədər təhsil sahəsində aparılan yeniləşmə şəraitində tərbiyəçilərin müasir texnologiyanın geniş spektrindən, inteqrativ yanaşmanın rəngarəngliyindən istifadə etməklə uşaqların hərtərəfli inkişafına çalışmaları daha vacib problemlərdəndir.

Son illərdə təhsildə tətbiq olunan yeni təlim texnologiyaları pedaqoji fəaliyyət prosesində artıq öz effektliyini sübut etmiş və tədrisin inkişaf elementlərini özündə cəmləşdirmişdir. Ümumiyyətlə, informasiya cəmiyyətinin formalaşması ilə əlaqədar olaraq hazırda insanların informasiyalara olan münasibətləri əsaslı şəkildə dəyişmişdir.